# GƏLƏCƏYİ GÖRMƏK ÜÇÜN DAHİLİKDƏN YARARLANAN ŞƏXSİYYƏT

***Çoxəsrlik dövlətçilik ənənələrinə malik olan xalqımızın tarixində ümummilli liderimizin şəxsiyyəti, onun siyasi və idarəçilik fəaliyyəti müstəsna yer tutur. Xalqımız tarix boyu arzuladığı milli amallarını, yaşatdığı dövlətçilik ənənələrini, həqiqi mənada, XX əsrdən XXI əsrə keçid dövrünü əhatə edən Heydər Əliyev epoxasında gerçəkləşdirdi, yenidən müstəqil Azərbaycan dövlətini qura bildi.***

Çağdaş Azərbaycan tarixinin 34 ildən artıq bir dövründə respublikamıza rəhbərlik etmiş Heydər Əliyev dövlətçilik salnaməsində elə bir irs

yaratmışdır ki, onun öyrənilməsinə, təbliğinə və tətbiqinə hələ uzun illər böyük ehtiyac olacaqdır və bu irs heç zaman tükənməyəcəkdir.

Ulu öndərin fəaliyyəti dünya siyasət sənətinin xəzinəsinə daxil olmuş, onun adı Azərbaycan xalqının rəmzinə, keçdiyi ömür yolu doğma torpağa məhəbbət və sədaqət meyarına çevrilmişdir. Ulu öndər Azərbaycan

xalqının və dövlətinin milli mənafeyini hər şeydən uca tutan, onu ümumi məqsədlər naminə səfərbər etməyi bacaran, cəmiyyətdə qanunçuluğu, hüquq qaydalarını təmin edən bir rəhbər idi.

Heydər Əliyev öz xalqına, Vətəninə sonsuz sədaqəti, məhəbbəti, uzaqgörənliyi, xeyirxahlığı, düşünülmüş




birinci dövründə

respublikada köklü dəyişikliklər baş vermişdi. Əgər Heydər Əliyevin rəhbərliyi altında ötən əsrin 70- 80-ci illərində yurdumuzun sosial-iqtisadi, mədəni yüksəlişi üçün həyata keçirilən tədbirlər, milli şüurun oyanışı

istiqamətində istər açıq, istərsə də gizli şəraitdə görülən zəruri işlər olmasaydı, bu gün Azərbaycanın suveren dövlət kimi mövcudluğu naməlum idi.

Sovet zamanında, hər bir tapşırığın mərkəzdən ve-min illərdə Azərbaycanı yalnız parçalanmaqdan, dövlət çevrilişlərindən, özbaşınalıqlardan xilas etmədi, həm də xalqımıza yeni, firavan, ildən-ilə gözəlləşən bir həyat,

müstəqil Azərbaycanın bar- bəhrəsini bəxş etdi.

Heydər Əliyev öz əməli fəaliyyəti ilə nəinki Azərbaycan, eləcə də insanlıq, bəşəriyyət üçün dəyərli bir tarix yaratdı. Bu, bəşəri ideyaların ölməzliyi, azadlığın, insanlığın, ağıl və təfəkkürün, xalq məhəbbətinin

yenilməzliyi tarixidir.

Ulu öndər ölkəmizə sabitlik, sülh və əmin-amanlıq, siyasi islahatlar, demokratikləşmə, iqtisadi yüksəliş, sosial inkişaf gətirdi. Heydər Əliyev qanlı müharibədə atəşkəsə nail oldu, iqtisadiyyatı dirçəltdi, Azərbaycanı

tənəzzül etmiş dövlətdən inkişaf edən ölkəyə çevirdi.Böyük rəhbər respublikamızın beynəlxalq əlaqələrini möhkəmləndirərək gələcək inkişafa hesablanmış neçə-neçə layihələrin, xüsusilə uğurlu neft strategiyasının

təməlini qoydu. Düşünülmüş xarici siyasət kursu ölkəmiz üçün təkcə siyasi dəstək deyil, həm də iqtisadi əməkdaşlıq və investisiya imkanları yaratdı. Azərbaycanın günbəgün beynəlxalq nüfuzu artdı, iqtisadiyyatımızın müxtəlif sahələrinə külli miqdarda xarici sərmayələr yatırıldı.

Dünya inkişafının perspektivini aydın görən, ona doğru addımlayan və ölkəsini, xalqını ona doğru istiqamətləndirən Heydər Əliyevin uzaqgörən siyasəti müa-

və gərgin fəaliyyəti ilə Azərbaycanın XX əsr ictimai-siyasi, iqtisadi, mədəni, mənəvi həyatında yeni bir canlanma, yüksəliş yaratmışdır. Müstəqil Azərbaycanın rəhbəri kimi onun miqyaslı və dərin siyasəti bütün dünyanı ehtiva edə bilirdi, regionun perspektiv yolunu düzgün istiqamətə yönəldirdi. Heydər Əliyev dünyanın

bir çox ölkələri ilə, hətta xain və məkrli düşmənlərimizlə də "sülh dili" ilə danışmağı bacarır, onların təcavüzkar siyasətinin məhvə məhkumluğunu bəyan edirdi.

Ulu öndərin ali keyfiyyətləri- fenomen xarakteri, insanlara sevgisi, hərəni öz dilində danışdırmaq məharəti, xeyirxahlığı onu tanıyanların sevimlisinə çevirirdi. Onun xalq işinə sədaqəti, siyasi müdrikliyi, böyük

dövlətçilik təcrübəsi, parlaq hafizəsi, geniş dünyagörüşü, polad iradəsi, mərdanə qətiyyəti, həssas qəlbi, möhkəm səbri, həmişə obyektiv mövqe tutması, yüksək intellekti, analitik təfəkkürü, sadə davranışı, heyrətamiz

enerjisi dünyanın hər yerindən görünürdü.

Azərbaycan xalqının ümummilli lideri yüksək bəşəri keyfiyyətlərə, təvazökarlığa, hər şeydən öncə, demokratik dövlət quruculuğu prinsiplərinə sadiq bəşəri şəxsiyyət idi. Onun fəaliyyəti yalnız konkret sahələri əhatə etmir, həm də ümummilli və qlobal əhəmiyyətli problemlərin aradan qaldırılmasına xidmət edirdi. Heydər Əliyevin ali keyfiyyətləri və siyasi potensialı onun müxtəlif sistemlərdə və coğrafi

məkanlarda rəhbər elitanın ən yüksək pilləsində qərarlaşmasını təmin etmişdi. Belə bir dühanın məhz Azərbaycan xalqına mənsub olması və özündən sonra bu xalqın tarixində yaradıcı iz və daha uzaq gələcəyə

hesablanmış siyasi irs qoyması, bütövlükdə, xalqımızın milli uğuru və iftixar mənbəyidir. Ulu öndər Azərbaycan xalqının zaman- zaman fəxr edəcəyi və həyat yolundan ibrət götürəcəyi böyük bir mütəfəkkirdir. Heydər Əliyev təkcə gələcəyi görmür, həm də o gələcəyi yaradırdı.

O, şətinlikləri dəf etməklə gələcəyə gedən yolu açır və insanlara buna sövq edirdi. Bugünü anlamaq üçün istedaddan, gələcəyi görmək üçün

dahilikdən yararlanan Heydər Əliyev indiki müstəqil dövlətimizin bütün sahələr üzrə gələcəyinin cizgilərini,an Təhlükəsizlik orqanlarına təyin edildiyi vaxtdan çəkmişdi. Onun 1969-cu ildə Azərbaycanda siyasi hakimiyyətə gəlişini tarixi hadisə kimi qiymətləndirənlər öz qənaətlərində haqlıdırlar. Çünki ulu öndərin rəhbəliyinin

rildiyi vaxtda geridə qalan Azərbaycanda insanların öləziyən ümidlərini ruh yüksəkliyi ilə əvəz edib, fəal təsərrüfat, tikinti-abadlıq, quruculuq işlərinə yönəltmək əsl

qəhrəmanlıq, möhtəşəm bir rəhbərlik nümunəsi idi. Bu gün insanlar həmin tarixi vərəqlədikcə Heydər Əliyev zəkasının, düşüncəsinin, müdrikliyinin hüdudlarını bir daha hiss edir, ümummilli liderin respublikamız,

xalqımız üçün misilsiz xidmətlər göstərdiyindən xəbərdar olurlar.

Ümummilli lider Heydər Əliyev respublikaya birinci rəhbərliyi dövründə xalqda milli özünüdərk hissini gücləndirə, habelə milli kimliyi, düşüncə sistemi barədə dolğun təsəvvür formalaşdıra bilmişdi. Həmin illərdə

milli-mənəvi dəyərlərə nihilist baxış tədricən aradan qalxmış, klassik ənənə ilə müasir ədəbi irs arasında yaranan möhkəm mənəvi- ideoloji körpü milli düşüncənin düzgün məcrada inkişafına səbəb olmuşdu.

Ümumiyyətlə, həmin dövrdə böyük strateq Heydər Əliyevin respublikaya rəhbərliyinin bütün fəlsəfəsi yalnız xalqın ümumi dirçəlişi, milli qürurunun oyanışı məramına hesablanmışdı. İdarəçilikdə atılan

məqsədyönlü addımlar, o cümlədən iqtisadi inkişafın sürətləndirilməsi milli şüurun yüksəlməsinə, milli dirçəlişin etibarlı təməlinin yaradılmasına xidmət edirdi.

Ümummilli lider Heydər Əliyevin xalqın istəyi və iradəsi ilə ikinci dəfə siyasi hakimiyyətə gəlişi isə canından artıq sevdiyi Azərbaycanı, xalqımızı məhv olmaq təhlükəsindən xilas etdi. 1993-cü ilin iyun

hadisələrinə qiymət verməyi bacaran hər bir insan dərindən dərk edir ki, ulu öndər o dövrdə həyatını təhlükəyə atmaqla, qardaş qırğınının, vətəndaş müharibəsinin qarşısını almağa ölümündən çəkinməyərək nail oldu. Bu,

Heydər Əliyev ömrünün yeni bir qəhrəmanlıq səhifəsi idi. Vətənini və xalqını sonsuz məhəbbətlə sevən, andına, əqidəsinə sadiq olan, qətiyyəti, inamı, müdrikliyi ilə milyonları öz ətrafında birləşdirməyi bacaran, hadisələri düzgün qiymətləndirib reallıqlardan lazımi və zəruri nəticə çıxaran Heydər Əliyev kimi vətənpərvər insan, siyasətçi bu xilaskarlıq missiyasını gerçəkləşdirə bilərdi.

Heydər Əliyev fəaliyyətinin 1993-2003-cü illəri də bir ömrün qızıl salnaməsi, Azərbaycanı daim müstəqil, azad, demokratik ölkə kimi görmək istəyən dahi şəxsiyyətin öz məqsədlərini uğurla həyata keçirdiyi

illərin unudulmaz səhifələridir. Ümummilli lider həsir Azərbaycanın dünya birliyinə təbii inteqrasiyasını

təmin edərək, onun müstəqilliyini əbədi və dönməz etdi. Bu siyasət: hər şeydən əvvəl, uzunmüddətli sabitliyin bərqərar olunmasına yönəlmişdi; ikincisi, zaman çərçivəsi ilə məhdudlaşmayıb gələcəyə hədəflənmişdi;

üçüncüsü, geopolitik maraqların Azərbaycanın milli mənafeləri ilə uzlaşması harmoniyasını yaradırdı; nəhayət, hələ uzun illər Azərbaycanın daxili və xarici siyasət doktrinasının özəyini, milli inkişafımızın təməlini təşkil edəcəkdir.

Öyrənildikcə öyrənilən, heç zaman tükənməyən Heydər Əliyev irsi, müasiri olduğu digər dünya siyasətçilərindən fərqləndirən siyasi dühası, yaradıcı zəkası hələ uzun illər çoxtərəfli araşdırmaların mövzusu olacaq. Heydər Əliyevin müasir Azərbaycanın qurucusu olmaqla yanaşı, tərəqqi və ədalət, sülhpərvərlik və humanizm ideyalarına, bəşəri dəyərlərə əsaslanan

geniş spektrli fəaliyyəti ilə bəşər tarixinin yetişdiriyi nadir şəxsiyyət olması həmişə etiraf olunacaq.

Heydər Əliyev milli dövləti idarə etməyin beynəlxalq siyasi sistemlə ideal bağlılığını tapa bilən müstəsna siyasət ustalarından idi. Ulu öndərin Azərbaycan dövlətçiliyi praktikasındakı bu nailiyyəti, formalaşdırdığı

siyasi idarəetmə sistemində bu məqamın tapılması onun siyasi kursunun uğurla davam etdirilməsinin ən başlıca reallıqlarındandır.

Azərbaycanda siyasi hakimiyyətin Heydər Əliyevin yaratdığı dövlətçilik təməli üzərində inkişaf etdirilməsi, möhkəmləndirilməsi zərurəti üzərində düşünərkən artıq çoxdan təsdiqini tapmış belə bir həqiqəti

dərk edirik ki, Heydər Əliyevin siyasi uzaqgörənliyinin zirvəsi onun özündən sonra siyasi kursunu hər kəsdən yaxşı davam etdirərək, Azərbaycanın müstəqilliyini hamıdan yaxşı qoruya biləcək, dövlətimizin inkişafını hamıdan yaxşı təmin edəcək yeni dövrün liderini- İlham Əliyevi Azərbaycana bəxş etməsidir. Azərbaycanı Qafqazın ən qüdrətli dövlətinə çevirmiş, ölkəsinin bütün sahələrdə qalibiyyət potensialını üzə çıxarmış Prezident İlham Əliyevlə xalqımız özünə ən etibarlı siyasi gələcək qazandı, mütərəqqi inkişaf yolunu qoruyub saxladı. Təməli ulu öndər Heydər Əliyev tərəfindən qoyulan dövlət quruculuğu prosesini Prezident İlham Əliyevin yüksək dinamizm və əzmkarlıqla davam etdirilməsi xalqımızın sabaha inamının qaynağıdır.

***Sərvər Babayev,***
***Azərsu ASC Suraxanı Sukanal idarəsinin rəisi***

## *POLAD BÜLBÜLOĞLU:* LAÇIN YOLUNDAN İSTİFADƏDƏ ŞƏFFAFLIĞI TƏMİN EDİLƏCƏK

Səfir Polad Bülbüloğlu Rusiya Federasiyasının Xarici İşlər nazirinin müavini Mixail Qaluzinlə görüşüb. Azərbaycanın Rusiyadakı Səfirliyindən bildirilib ki, görüşdə Laçın-Xankəndi yolunda yaranmış vəziyyət müzakirə edilmiş, Ermənistan-Azərbaycan münasibətlərinin normallaşmasına dair Azərbaycan, Rusiya və Ermənistan liderləri arasında indiyədək əldə edilmiş razılaşmalara ciddi əməl olunmasının vacibliyi bir daha təsdiqlənib.



Polad Bülbüloğlu Azərbaycan Respublikasının regionda uzunmüddətli sülhün bərqərar olmasında maraqlı olduğunu və üçtərəfli bəyanatın müddəalarına sadiq qaldığını diqqətə çatdırıb.

Səfir qeyd etmişdir ki, Ermənistan tərəfi sözügedən bəyanatın müvafiq bəndlərini pozaraq, regionda bütün kommunikasiya xətlərinin açılması və Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdirildiyi Azərbaycanın suveren ərazilərindən qeyri-qanuni erməni birləşmələrinin çıxarılması ilə bağlı öhdəliklərini bu günədək yerinə yetirməyib.

Üçtərəfli bəyanata zidd olaraq, məhz Ermənistandan Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələri üçün canlı qüvvə, silah-sursat, mina və digər hərbi təyinat vasitələrinin daşınmasının qarşısının alınması üçün tərəfimizdən Azərbaycanın suveren ərazisi olan Laçın-Xankəndi yolunun başlanğıcında nəzarət-buraxılış məntəqəsi yaradılıb.

Bununla yanaşı, Polad Bülbüloğlu qarşı tərəfin diqqətinə çatdırmışdır ki, Azərbaycan Laçın yolundan istifadədə şəffaflığın qorunmasını təmin edəcək və həmin yol 3 istiqamət - vətəndaşlar, yüklər və nəqliyyat vasitələri üçün nəzərdə tutulub.

Əvvəl də olduğu kimi Laçın yolundan Rusiya sülhməramlı kontingenti, Beynəlxalq Qırmızı Xaç Komitəsi və humanitar məqsədli nəqliyyat vasitələrinin keçidi üçün tam şərait yaradılacaq və bütün digər humanitar xarakterli məsələlər öz həllini tapacaq.

Ermənistan tərəfindən yerləşdirilmiş minaların qurbanları olan vətəndaşlarımızın artdığını vurğulayan Səfir, son olaraq, Şuşa rayonu ətrafında yük avtomobilinin minaya düşməsi nəticəsində 3 Azərbaycan hərbçisinin xəsarət aldığını və hadisə baş verən əraziyə keçirilmiş baxış zamanı minaların 2021-ci ildə Ermənistanda istehsal olunduğunun müəyyən edildiyini qeyd edib. Bu hadisənin ermənilərin növbəti mina təxribatı kimi dəyərləndirildiyini, yeni nəzarət-buraxılış məntəqəsinin məhz gələcəkdə bu kimi hadisələrin təkrar olunmaması üçün qurulduğunu bildirib.

# AZƏRBAYCAN QLOBAL ANTİKORRUPSİYA MÜBARİZƏSİNDƏ FƏAL İŞTİRAK EDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qəti siyasi iradəsi ilə ölkəmizdə korrupsiyaya qarşı sərt mübarizə aparılmaqla bu sahədə beynəlxalq əməkdaşlığa mühüm əhəmiyyət verilir. Dövlətimiz dünyanın 160 qurumunu birləşdirən Beynəlxalq Antikorrupsiya Orqanları Assosiasiyasının (IAACA) təşkilatçılarından biri olmaqla onun işində fəal iştirak edir və rəhbərliyində təmsil olunur.

Hakimiyyet.info.az xəbər verir ki, IAACA-nın iqamətgahının yerləşdiyi Honq-Konqda 25-27 aprel tarixlərində Assosiasiyanın tədbirləri keçirilir. Tədbirlərdə iştirak etmək məqsədilə Azərbaycanın ədliyyə naziri, Assosiasiyanın vitse-prezidenti, eyni zamanda Şərqi Avropa regionu üzrə koordinatoru Fikrət Məmmədov Honq-Konqa səfər edib.

Səfər zamanı IAACA-nın Prezidentinin, ölkəmizin ədliyyə nazirinin və digər rəsmi şəxslərin iştirakı ilə Assosiasiyanın yeni ofisinin təntənəli açılışı həyata keçirilib, rəmzi açılışı bildirən lent kəsilib, bina ilə tanışlıq olub.

Sonra yeni ofisdə IAACA-nın rəhbər orqanı - İcraiyyə Komitəsinin iclası keçirilərək Assosiasiyanın korrupsiya ilə qlobal mübarizədə fəaliyyəti və gələcək




perspektivləri, habelə təşkilati məsələlər müzakirə olunub, vitse-prezidentlərin məsul olduğu regionlar üzrə beynəlxalq antikorrupsiya əməkdaşlığının genişləndirilməsi ilə bağlı gördüyü koordinasiya işlərinə dair məruzələr dinlənilib.

Ədliyyə naziri çıxış edərək Azərbaycan Prezidenti İlham Əliyevin siyasi iradəsinə uyğun olaraq korrupsiyaya qarşı aparılan mübarizə tədbirlərindən, ölkəmizin beynəlxalq antikorrupsiya fəaliyyətində aktiv iştirakından bəhs edib.

F.Məmmədov Assosiasiya tərəfindən korrupsiyaya qarşı mübarizədə beynəlxalq səylərin gücləndirilməsi və bu sahədə fəaliyyətin əlaqələndirilməsi məqsədilə yaradılmış regional koordinasiya mexanizminin səmərəsini qeyd edib, Azərbaycanın təşəbbüsü ilə qısa müddətdə Şərqi Avropa regionu ölkələrinin böyük əksəriyyətinin IAACA-nın işinə cəlb olunduğunu vurğulayıb.

Bildirib ki, Şərqi Avropa dövlətlərinin antikorrupsiya qurumları və regionda fəaliyyət göstərən beynəlxalq antikorrupsiya şəbəkələri ilə əməkdaşlıq edilir, korrupsiyaya qarşı mübarizə üzrə təcrübə mübadiləsinə dəstək göstərilir, bu məqsədlə birgə treninqlər, beynəlxalq seminarlar təşkil olunur, digər tədbirlər həyata keçirilir.

Həmçinin təşkilatın inkişafına dair irəli sürülmüş təkliflər məmnunluqla qəbul olunub.

İclasda Azərbaycanın beynəlxalq antikorrupsiya mübarizəsinə, o cümlədən bu sahədə IAACA-nın səmərəli fəaliyyətinin dünyada geniş təşviqinə və beynəlxalq əlaqələrinin genişləndirilməsi işinə dəyərli töhfələri təqdir olunaraq həyata keçirdiyi tədbirlərə böyük maraq göstərilib.

Tədbir çərçivəsində həmçinin, müxtəlif dövlətlərin hüquq-mühafizə orqanlarının rəhbərləri ilə antikorrupsiya sahəsində əməkdaşlığa dair faydalı danışıqlar aparılıb.

Səfər zamanı bir sıra digər rəsmi görüşlərin keçirilməsi və məhkəmə-hüquq sistemi ilə tanışlıq nəzərdə tutulur.




## AKADEMİK ZƏRİFƏ ƏLİYEVANIN 100 İLLİK YUBİLEYİNƏ HƏSR EDİLMİŞ TƏDBİR KEÇİRİLİB

Hakimiyyet.info.az xəbər verir ki, aprelin 26-da Mərkəzi Gömrük Hospitalında akademik Zərifə Əliyevanın 100 illik yubileyinə həsr edilmiş tədbir keçirilib.

Tədbirdən öncə Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsinin əməkdaşları Fəxri xiyabana gələrək müasir Azərbaycan dövlətinin qurucusu ümummilli lider Heydər Əliyevin və görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın xatirəsini anıb, məzarları önünə tər çiçəklər düzüblər.

Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsinin rəisi, tibb xidməti general-mayoru Ceyhun Məmmədov 2023-cü ilin müasir Azərbaycanın memarı və qurucusu, ümummilli lider Heydər Əliyevin və Azərbaycan elminin ən parlaq simalarından olan görkəmli oftalmoloq alim və həkim Zərifə xanım Əliyevanın 100 illik yubileyləri ilə əlamətdar olduğunu qeyd edib.

Tədbirdə Azərbaycanın görkəmli alimi, əməkdar elm xadimi, tibb elmləri doktoru, professor, Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü Zərifə Əliyevanın gələcək nəsillərə nümunə olacaq elmi fəaliyyətindən danışılıb, onun keçdiyi şərəfli ömür yolunun hər bir Azərbaycan vətəndaşı üçün həyat və mənəviyyat dərsi, kamillik və müdriklik məktəbi olduğu vurğulanıb.

Sonda akademik Zərifə Əliyevanın həyat və fəaliyyətinə həsr edilmiş videoçarx nümayiş etdirilib.